**UOT 82**

# HÜSEYN CAVİD DRAMATURGİYASINDA HÖKMDAR OBRAZI VƏ TARİXİ MÜHİT

*("Topal Teymur" əsəri əsasında)*

**Aynur İSGƏNDƏROVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 24 fevral 2023; çapa qəbul edilmişdir: 14 mart 2023; online-da çap edilmişdir: 31 may 2023.
Received: 24th of February, 2023; accepted: 14th of March, 2023; published online: 31st of May, 2023.

**Açar sözlər:** *Topal Teymur, romantizm, tarix, dramaturgiya, Hüseyn Cavid*

## Giriş

Azərbaycan romantizminin banilərindən olan Hüseyn Cavid dramaturgiyamazın inkişafında mühüm işlər görmüş öz ölümsüz əsərləri ilə mədəni-bədii irsimizə qiymətli töhfələr bəxş etmişdir. Cavid yaradıcılığının ən önəmli ideyası məhz milli ruh anlayışı ilə bağlı idi. Ümumiyyətlə, romantizm cərəyanın kökündə "Millli baxış" yer almaqda idi. Bunu istər Fransa inqilabi hadisələrində istərsə də sonradan bu cərəyana sahiblənən digər Avropa ölkələrində, xüsusən də Avropada müşahidə etməkdəyik. Tənzimat dönəmi türk ədəbiyyatı da məhz bu cərəyana üstünlük verdiyi üçün Türkiyənin gənc romantikləri kimi Cavid əfəndi də bu cərəyanın görkəmli nümayəndəsi kimi Azərbaycanda türkçülük ideyalarının daşıyıcılarından biri oldu.

## Cavid yaradıcılığında türk birliyi məsələsi

Hər bir millətin tarixində olduğu kimi, Hüseyn Cavid də zəngin mədəniyyəti olan Türk dünyasının önəmli şəxsiyyətlərindən və sənət adamlarından biri olmuşdur. O, önəmli fikri və qabaqcıl ideyaları ilə şöhrət qazanmış şəxsiyyətlərdəndir. Yaşadığı mühitə, çağa sığmayan ədiblə toplum arasında yerlə göy qədər fərq vardır. Ziddiyyətli eyni zamanda mürəkkəb həyat yolu yaşamış şair daim haqq-ədalət, həqiqət uğrunda mübarizə aparan romantik qəhrəmanların həyatını yaşamış, iztirablı, əzablı, əziyyətli bir həyat və yaradıcılıq yolu keçmişdir. Yaşadığı dövrün bir çox ədiblərinin, yazıçılarının yaradıcılığında olduğu kimi Cavidin yaradıcılığında da böyük Türk dünyasında baş verən problemlər, aləmdə yaranan ideyalar, fikirlər özünü göstərmişdir. Ədibin diqqətini əsasən cəmiyyətdə baş verən, xalqı narahat edən problemlər çəkmiş, o heç bir zaman gündəlik məişətdə baş verən xırda hadisələri qələmə almamışdır. XX əsrin əvvəllərində yaşamış romantik sənətkarlardan, ədiblərdən bəhrələnərək, öz ölməz sənət əsərlərini yaratmışdır. Əsərlərində baş verən hadisələri əsasən tarixi planda qələmə almağa çalışmışdır. Ədibin əsərləri demək olar ki, hər biri Türk dünyasında özünün milli xüsusiyyətinə, mövzu və ideyalarına görə fərqlənən ölməz şah əsərləri sırasındadır.

XIX əsrin ortalarından bütünlükdə Türk dünyasında ictimai, elmi və ədəbi fikirdə milliliyin - türklüyün yeni bir dalğası başlamışdı. Türk xalqlarının milli hissələri, millət duyğuları ümumi vahid türklüyün elmi dərkinə yönəlmişdi. Türkiyədə tənzimatçılar hərəkatı, Azərbaycanda Mirzə Fətəlinin ədəbi türkçülüyü, H.Zərdabinin «Əkinçi» qəzetinin milli mövqeyi, Krımda I.Qaspirinskinin «Dildə, işdə, fikirdə birlik» çağırışlı «Tərcüman» qəzetinin məsləki – Türk birliyi – bütün bunlar Türklüyün ədəbi, elmi oyanışından xəbər

* *magistrant, BAAU*
*e-mail:*aynurisgenderova357@gmail.com

verirdi. Türklüyün tarixi, siyasi, ideoloji, dini, nəzəri və ədəbi tərəfləri ayırd edilirdi (1, s. 8). Həmin dövrdə bir çox Azərbaycan türkçü ziyalıları kimi Cavid əfəndi də öz bədii yaradıcılığı ilə bu ideyaya xidmət etmiş oldu.

**Cavid yaradıcılığında tarixə müraciət**

Cavid yaradıcılığının ən önəmli xüsusiyyətlərindən biri də onun yaradıcılığı boyu bu və ya digər dərəcədə tarixi mövzulara müraciət etməsidir. Onun, "Peyğəmbər", "Siyavuş", "Topal Teymur" kimi əsərləri yalnız tarixi şəxsiyyətlərin prototipini yaratmaqla bitmirdi. Bu obrazların vasitəsi ilə Cavid tarixə ekskursiya edərək, türk millətinin kimlik süurunu oyandırmağa cəhd edirdi. Onun belə ölməz əsərlərindən biri də "Topal Teymur" əsəridir. Ədəbin, demək olar ki, hər bir əsərində epizodik də olsa, tarixi hadisələrin şahidi oluruq. Məsələn, "İblis" əsərində I Dünya müharibəsinin təsviri ilə ədib tarixi hadisələri bədiiləşdirsə, "Peyğəmbər", "Topal Teymur" kimi dram əsərlərində konkret tarixi şəxsiyyətlərə müraciət edərək, bəhs etdiyi dövrün ictimai-tarixi, siyasi mədəni hadisələrini göz önündə canlandırır.

Romantizm cərəyanının diktə etdiyi kimi, keçmişə müraciət Cavid yaradıcılığında aydın şəkildə özünü büruzə verməkdə idi. Türk ictimai-siyasi və ədəbi mühitinin yetişdirməsi olan Cavid əfəndinin yaradıcılığında hər zaman milli məfkurə, milli əhval ruhiyyə xüsusi önəm daşımış, bu halı onun mövzu seçimində də özünü ifadə etmişdir.

*Zalımları, cəlladları çeynəyin heç qorxmayın,*
*Türk milləti görünməmiş boyun büksün yalvarsın,* (1, s. 128)

- deyən Cavid əfəndi türk millətinin əslinsə sovet rejiminə boyun əyməməsi üçün xalqına sətraltı mesajlar ötürməyə çalışırdı. Məhz bu səbəbdən də onun hökmdar obrazının prototipi olaraq seçdiyi qəhrəmanları da məhz türklər idi.

Hüseyn Cavid Azərbaycanın dahi sənətkarlarından biri olan Mirzə Ələkbər Sabirin məşhur "Fəxriyyə" əsərini əsas götürərək, türkün tarixinə nəzər salan, böyük türk sərkərdəsi, türk qəhrəmanı və dövlət xadimindən bəhs edən tarixi dram əsərini yazmışdır.

Talıbovaya görə, Hüseyn Cavidin əsərlərini Şərq ölkələrinin ən mühüm dövrlərinin bədii-tarixi salnaməsi hesab etmək olar. O, Cavidə müraciətini aşağıdakı şəkildə dəyərləndirir: "Cavid görkəmli dövlət xadimlərinin, məşhur sərkərdələrin tarixi xidmətlərini bədii sözün qüdrəti ilə təsvir etmişdir. Bu əsərlər Şərq tarixinin ulu çağlarından başlayaraq, sonrakı dövrlərədək ictimai-siyasi həyatın panoramını canlandırmış, tarixi şəxsiyyətlərin həyat və fəaliyyətlərinin təbliği və tanınmasında da mühüm rol oynamışdır. Mövcud siyasi şəraitdən asılı olaraq cavidşünaslıqda özünü göstərən qeyri-obyektiv meyllər "TopalTeymur" pyesinin (1925) təhlilində daha qabarıq şəkildə ortaya çıxmışdır" (4, s. 4).

Dramaturq Əmir Teymur kimi tanınan Orta Asiya türklərinin fatehi Teymur haqqında yazdığı "Topal Teymur" adlı beş pərdəli tarixi dramı 1925-ci ildə bitirir və 1926-cı ildə Azərnəşr nəşriyyatında çap olunur. Eyni ildə pyes ilk dəfə Bakıda səhnələşdirilir.

**"Topal Teymur" əsərində tarixi reallıq və bədiilik**

Mövzunun təhlilinə keçmədən öncə əsərin istinad edildiyi tarixi hadisələrə nəzər salmaq vacib şərtlərdəndir. Tarixdən bəlli olduğu kimi, məşhur türk sərkərdəsi türk dünyasının da həqiqi desək Şərqi Türküstandan başlayaraq böyük bir ərazidə imperiya qurmuş Əmir Teymurun (1336-1405) Anadoluyayürüşündə tarixi faktlardan biridir. Bu dövr Osmanlı imperiyasının yeni çiçəklənmə dövrünə təsadüf edirdi və həmin dövrdə Osmanlı imperiyasının başında böyük türk sərkərdəsi Sultan İldırım Bəyazid (1354-1403) durmaqda idi. Bu qarşılaşma türk dünyası üçün böyük bir faciə ilə yadda qaldı. Bu mənada sözügedən əsər iki türkün faciəsinə – Şərqi Türküstan və Qərbi Türküstan dahi sərkərdələrinin münaqişəsinə həsr olunub.

Dünyanı öz aralarında bölə bilməyən bu iki dahi sərkərdəyə məhz Hüseyn Cavidin münasibəti birmənalı deyildi. Səbəb isə məhz iki türk sərkərdəsinin bir-birinə qarşı cıxması hadisəsi ilə bağlı idi.

Bu hadisə sonralar bir çox tarixçilərin əsərlərində bu və ya digər şəkildə öz əksini tapdı. Hələ Teymurləngin sağlığında yaranan "Teymurnamə" əsərində öz əksini tapdı. Hadisə ilə bağlı Teymur dövrünün müasirləri Əli bin Camal əl-İslam, Nizaməddin Şami, Şərafəddin Yəzdi, ispan səyyahı Klavixo, eləcə də orta əsrlər tarixçiləri Hafizi Əbru, İbn Ərəbşah Teymurun yürüşlərindən bəhs edərkən bu hadisəyə münasibət bildirmişdilər.

Bu tarixi hadisəyə bədii kontekstdən yanaşan Hüseyn Cavid "Topal Teymur" dramında iki yenilməz türk sərkərdəsinin qarşı qarşıya durması zəminində qurduğu əsərdə hər iki sərkərdənin gücünü, qüdrətini, şücaətini təsvir etməklə yanaşı bir-birinə qarşı gəlmələrinin böyük tarixi səhv olduğunu da diqqətə çatdırmağa çalışmışdır.

Bütün bunlarla yanaşı əsər boyu müəllifin Teymur şəxsiyyətinə olan simpatiyası da öz ifadəsini tapır. Cavid yaradıcılığında Teymur yeni nəfəs əldə etdi. Yeni baxış prizmasından Teymur obrazına yanaşan müəllif Teymuru ədəbiyyata, mədəniyyətə yüksək qiymət verən bir sərkərdə kimi təqdim etmişdi. Dramda Teymurun monoloqları və dialoqları xüsusi diqqət çəkir.

O, türkün tarix boyu qurmuş olduğu hərbi demokratik dövlətçiliyini də ifadə etməkdən çəkinmir və bunu əsərin əvvəlində Orxanın Olqa ilə dialoqunda ifadə edir:

*"- Olqa: Rica edərim yetişir. Şu müharibədən, ölümdən çox söyləmə.*

*- Orxan. Müharibədə ölənlər evdə ölənlərdən sayca çox azdır. Bəncə, müharibəsiz ömür, ömür deyil. Biz türklərə bir qürur neçə verən bir şey varsa o da müharibə, o da qalibiyyətdir. Unutmaki sən kəndində fəth və zəfər səhralarında bulunan bir çiçəksin".* (2, s.299)

Ədəbi mühitdə böyük səs-küyə səbəb olan bu pyesə münasibət birmənalı olmadı. Əsərdəki ziddiyyətli fikirlər tənqidçilərin əsərə fərqli kontekstdən yanaşmasına səbəb oldu.

Unutmamalıyıq ki, Cavid dövrü Sovet illərinin ən qatı antitürk siyasətinin qurulduğu dövrlərə təsadüf edirdi. Həmin dövrdə türk dünyasının şanlı sərkərdələrinə əsər həsr etmək böyük bir cəsarət tələb edirdi. Bu mövzular Cavid şəxsiyyətinin qüdrətinə dözə bilməyən sovet rejiminin ona qarşı yönləndirəcəyi təqiblərlə müşahidə olunacaq və ən sonda pantürkist adı ilə damğalanaraq Sibirə sürgün edilməsi ilə nəticələnəcəkdi. Azərbaycanın ədəbi mühitində həmin dövr yazıb yaradan bir çox fikir adamları bunun fərqində idilər. Bu baxımdan əsərə münasibət ədəbi mühitdə heç də birmənalı qarşılanmırdı.

Rəhimovanın da qeyd etdiyi kimi, "Türk tarixindən hüsn-rəğbətlə danışanlara "pantürkist" damğasının vurulduğu bir dövrdə Əmir Teymurdan həqiqi bədii əsər yazmaq çətin olduğu kimi, həmin əsəri axıracan obyektiv təhlil etmək də asan deyildi. Çətinlik daha çox onda idi ki, Əmir Teymurun qanlar tökdüyünü təsdiqləməklə yanaşı, onun qüdrətli şəxsiyyət olduğunu və türk zəfər tarixinə şanlı səhifələr yazdığını da göstərmək lazım gəlirdi". (4, s. 4)

Bəzilərinin fikrinə görə, müəllif feodal fatehlərini ideallaşdırdı. Digər araşdırmaçılara görə isə Cavid Teymuru qəddar axsaq fateh kimi yox, türk dünyasının ən böyük sərkərdəsi, birləşdiricisi, elmin, sənətin hamisi kimi təqdim etməyə çalışmışdı. 80-ci illər Azərbaycan tənqidi fikrinin inkişafında mühüm rolu olan Yaşar Qarayevə görə, Cavidin yaratmış olduğu: "Topal Teymur"un (1922) estetik mahiyyəti və obyektiv fəlsəfi mahiyyəti çağdaş "cahangircik"lərə, cırtdan tiranlara qarşı etiraz və istehza ilə dolu idi. Əli Sultanlı "Topal Teymur"dan danışarkən bir neçə məsələni ədəbiyyatşünasların nəzərinə çatdıraraq yazmışdır: "Topal Teymur"dan danışarkən bir məsələni də qeyd etmək lazımdır. Bu əsərdə dramaturq ilə Teymurun saray şairi Kirmani və yaxud Anadolu filosofu Şeyx Buxari arasında eyniyyət düzəltmək yanlış bir üsuldur. O, tarixə sədaqət göstərərək, hadisələri əzəmətli dərəcədə düzgün təsbit etməklə, onları nisbətən romantikləşdirmişdir. Dramda Topal Teymur tarixdə olduğu kimi həm mənfi, həm də müsbət sifətləri ilə can-

lanmışdır.Cavid nifrət etdiyi və lənətlədiyi "qan püskürən ateş sovuran" şahlar və xaqanlar haqqında mədhiyyə yazmadı və Teymurləng də səhnəyə bu məqsədlə gətirilməmişdi. Bəlkə əksinə, Cavid "İblis" də şəri, şər dühasının – iblisin dili ilə ifşa etdiyi kimi, "Topal Teymur"da da tiranlığı müharibə tanrısının Teymurun dili ilə ifşa edirdi. İblis insanın özündə olan yamanlıq və şər deməkdir. Teymur da Cavidi məhz "özünü dərk etmiş tiran" kimi cəlb edirdi. Əsərdə gerçəkləşən və ancaq gerçəkləşdikdən sonra qavranılan mənəvi korluq və topallıq – şikəstlik" ən parlaq şəkildə Teymurun Ankara savaşına qərar verdiyi anda özünü göstərir. Faciədə bu qərar bütün islam Yaxın və Orta Şərq miqyasında bir günah "siyasət və rəyasət" bəlası qardaş qırğını olaraq damğalanır. *"Qanlar tökülüb, Ankarada qiyamət qopduqdan sonra Teymurun son sözləri bu savaşdakı qalıbiyyəti məğlubiyyət olaraq dərk etdiyini göstərir.*

*Hiç maraq etmə xaqan, sən kor bir abdal, mən dili bir topal! Əgər bu dünyanın zərrə qadar dəyəri olsaydı, yığın yığın insanlara ucu bucağı yoq məmləkətlərə sənin kimi bir kor, mənim kimi bir topal müsəllət olmazdı".* (I, s. 19)

Müasir Cavid tədqiqatçılarından olan G.Babaxanova və N.Babaxanovanın birgə hazırladıqları məqalədə qeyd olunur ki, Hüseyn Cavid dahi türk sərkərdəsi Teymur obrazını məhəbbətlə yaradıb. Və beləliklə, sərkərdəyə onu az qala bəşəriyyətin düşməni olan, açımasız canavar kimi təqdim etmək meyli olan avrosentriknəzəriyyəsinin tam əleyhinə çıxaraq onun obrazının bədii təfsirində türk dünyasının dühası adlandırdığı Teymura məhəbbəti öz əksini tapmışıdır. Maraqlıdır ki, Cavidin fikrincə, Teymur əsərdə dağıdıcı qüvvədən daha çox öz fəlsəfi görüşləri olan filosof kimi təqdim olunur. O, bu ideyaları gerçəkləşdirmək üçün isə hərb yolunu seçmişdir (5, s. 4).

Cavidin bu əsərdə Əmir Teymura bəslədiyi simpatiyaya rəğmən, ona qarşı kinayəsinin səbəbi məhz Teymurləngin türkə hücum etməsinin yalnışlığı ilə bağlı idi. Çünki romantiklərin əsas amalı Turan idi. Turançılıq ideyasının kökündə isə məhz böyük türk Mellərinin birliyi yer alırdı.

Hüseyn Cavid indiki Türk məmləkətlərinin fövqündə ümumi vahid bir Turanı görüb təsvir edirdi. Turan birinci növbədə ana yurdudur. Bunu onun Səyavuş əsərində də görməkdəyik:

*İştə ana yurdu, Turan ovası!*
*Yalçın qayalarda qartal yuvası!* (3, 42)

Dramaturq bütün həyatı boyu türk mədəniyyətinin eyni zamanda türk ədəbiyyatının inkişaf etməsi üçün çalışmış və türk xalqının birliyi uğrunda mübarizə aparmışdır. Cavidin gənclik dövrünü İstanbulda keçirməsi, İstanbul universitetində təhsil alması və türk ədəbiyyatının təsiri altında olması onu türk ədəbiyyatına dərindən yiyələnməsinə və bu millətə bağlılığını daha da artırmışdır. Türkiyədə təhsil aldığı müddətdə türk ədəbi mühitinin görkəmli sənətkarları olan T.Fikrət, R.Tofiq, Cənab Şəhabəddin, Xalid Ziya Uşaqlıgil kimi dahilərdən bəhrələnmişdir. Dövrün ən önəmli dahi, ziyalı şəxsiyyətləri ilə yaxınlıq etmiş, türkçülüklə bağlı fikirləri, ideyaları öyrənmişdir. İsmayıl Qaspıralı, Məmməd Əmin Yurdaqul, Ziya Göyalp kimi türkçülərin ideyalarını inkişaf etdirərək, "dildə, fikirdə, işdə birlik" şüarı ilə hərəkət etmişdir."Türk böyükdür, qüdrətlidir, bütün yüksək və gözəl nə varsa türklə bağlıdır" fikri də dahi şairə Məmməd Əmin Yurdaquldan keçmişdir.

H.Cavid yaradıcılığında milli düşüncəyə, milli şüura,mədəniyyətə, türkçülük ideyasına sahib olmaq əsas amillərdən biri idi.

*Türk ordusu daim basaraq ölkələr almış,*
*Ən sonda siyasətdə basılmış da bunalmış.*
*İdraki sönük başçıların qəfləti ancaq*

*Etmiş, edəcək milləti həp əldə oyuncaq.*
*Turana qılıncdan daha kəskin ulu qüvvət,*
*- Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!...* (4, s. 9)

Göründüyü kimi, Cavid göstərməyə çalışmışdı ki, yalnız müharibə etməklə, qan tökməklə qalib olmaq işin bitdiyi demək deyil. Türk ordusu həm də mədəniyyətdə, elmdə, maarifdə də düşməndən geridə qalmamalıdır. Bu bir fəlakət, eyni zamanda xalqın, millətin gələcəyi üçün çox təhlükəli ola bilər. Avropa millətlərindən fərqli olaraq, türk milləti eyni bir dilə mənsubdurlar. Yəni türklər ikidilli olub ikiüzlülük etməyi bacarmazlar. Cavidin fikrincə, xalqın həyatında əsas özəlliklərdən biri onun elmli təhsilli və mədəniyyətli olması başlıca şərtlərdəndir. Məhz buna görə də xalqın döyüşdə, müharibədə qalib gəlməsi deyil, elmdə, maarifdə üstün olmasını, öndə getməsinin vacib olduğunu vurğulayırdı.

Bütün əsərlərində ədalətsiz müharibə və qan tökməyin qatı düşməni olan H.Cavid "Topal Teymur"da ədalətsiz müharibəni, insanların əmin-amanlığını pozan ordu toqquşmalarını pisləyir. Sülhü müdafiə edənlərin səsi cahangirlərin amiranə hərəkətləri və bağırtıları qarşısında eşidilməz olur.

Teymurun şəxsiyyəti bu gün də istər bədii mətnlərdə istərsə də tarixi kontekstdən araşdırlımaqdadır. Xüsusən Orta Asiyada, o cümlədən Özbəkistanda Teymur şəxsiyyəti ilə bağlı araşdırmalar çağdaş dövrümüzdə də gündəmdədir.

**Nəticə**

Cavid üçün Turan ana yurd idi. Bu mənada bir birinə qardaş olan eyni böyük bir vətən içində yaşayan iki türk hökmdarının bir-birinə qarşı çıxmasının məhz buüzdən yanlış olduğunu diqqətə çatdırmaq istəyirdi.

Turançılıq ideyası "Topal Teymur" əsərinin əsas ideya qaynağını təşkil edir. Bu mənada əsər çağdaş dövrümüzdə də öz mövqeyini qoruyub saxlamaqdadır.

## ƏDƏBİYYAT

***Azərbaycan dilində:***

1. Hüseyn Cavid. Seçilmiş əsərləri, 4 cilddə, I cild // Bakı: Lider nəşriyyatı, 1982, 256 s.
2. Hüseyn Cavid. Dram əsərləri // Bakı: Avrasiyapress, 2007, 345 s.
3. Osmanlı V. Azərbaycan romantizmi // Bakı: Elm, 2010. 462 s.
4. Talıbova U.R. Hüseyn Cavidin "Topal Teymur" əsərində tarixilik və müasirlik. Magistrlıq dissertasiyası // Bakı: Elmi işlər, 2015, 68 s.

***Rus dilində:***

5. Бабаханлы Г.И., Бабаханова Н.Х. Драма Хромой Тимур Гусейна Джавида как обьект литературнокниговедческого анализа. Литературанародов стран зарубежья// Современные гуманитарные исследования №5, 2020, 17 s.

***Резюме***

***Айнур Искендерова***

***Образ правителя и историческая среда в драматургии Гусейн Джавида***
*(на основе «Топал Теймур»)*

Статья «Образ правителя и историческая среда в драматургии ГусейнДжавида (на основе анализа произведения «Топал Теймур») Посвящена одной из актуальных проблем азербайджанского литературоведения. В статье выясняются основные причины обращения к этой теме видного представителя азербайджанского романтизма Гусейна Джавида. Затрагивается турецкая среда, где

Гусейн Джавид получил образование, и влияние романтических идей, заимствованных композиторами из Европы, на творчество Джавида. В качестве ведущей идеи романтизма идея национализма выступает в творчестве Джавида, а также в драме «Топал Теймур». Обсуждается период написания произведения, уместность азербайджанской критики того периода произведению. Обращается внимание на то, почему Джавид Эфенди написал драму «Топал Теймур» именно в такое время. Элесе также говорит о противоречивых мыслях Гусейна Джавида о Тюэмурланге. Так что, как и у всех азербайджанских романтиков, у Гусейна Джавида главной идеей была идея нации и Турана.

Теймур был одним из великих турецких инвесторов, которые хотели объединить тюркский мир. Поход Тюймура в Анатолию, его противостояние и поражение султану Ильдырыму Беязиду, одной из влиятельных фигур Османской империи, составляют основную тему произведения. В конце Адиб пытается выразить сожаление по поводу того, что сделал Теймур. Чтобы прояснить представление Джавида о Туране, в статье предпринята попытка раскрыть истинный характер игры Топала Теймура на примерах из других его произведений.

В этой работе наглядно показано, что два турка, которые не могут разделить мир, ведут к поражению турка в любом случае, вне зависимости от того, победят они или потерпят поражение. В конце произведения, как сказал Ильдырым Баязид, «Думать не о чем. Да, ты выиграл. Однако эта победа не удовлетворила турецкое правительство, а только соседние правительства, которые ждали удобного случая. Скорее, он оставил исламский мир без головы».

Драма Топала Теймура входит в число бессмертных произведений азербайджанской литературы. Его несколько раз ставили в театре, а позже сделали как телеспектакль.

***Ключевые слова:*** *Топал Теймур, романтизм, история, драматургия, Гусейн Джавид*

***Summary***

***Aynur İskanderova***

***The İmage of the Ruler and the Historical Environment in the Dramaturgy of Huseyn Javid***
*(based on the "Topal Teymur")*

The article "The image of the ruler and the historical environment in the dramaturgy of H. Javid (based on the analysis of the work "Topal Teymur")is dedicated to one of the actual problems of Azerbaijani literary studies. The article clarifies the main reasons why Huseyn Javid, a prominent representative of Azerbaijani romanticism, addressed this topic. The Turkish environment, where Huseyn Javid was educated, and the influence of romanticism ideas adopted by the composers from Europe on Javid's creativity are touched upon. As the leading idea of romanticism, the idea of nationalism appears in Javid's works as well as in the drama "Topal Teymur". The period of writing of the work, the appropriateness of the Azerbaijani criticism of that period to the work is discussed. Attention is drawn to why Javid Efendi wrote the drama Topal Teymur at such a time. Elece also talks about the conflicting thought that Huseyn Javid had towards Tüemurlang. So, like all Azerbaijani romantics, Huseyn Javid's main idea was the idea of nation and Turan.

Teymur was one of the great Turkish investors who wanted to unite the Turkic world. Tuymur's march to Anatolia and his confrontation with and defeat of Sultan Ildırım Beyazid, one of the strongest figures of the Ottoman Empire, constitute the main theme of the work. At the end, Adib tries to express his regret for what Teymur did. In order to clarify Javid's idea of Turan, the article tried to reveal the true nature of Topal Teymur's play by taking examples from his other works.

In this work, it is clearly shown that the two Turks, who cannot divide the world, lead to the defeat of the Turk in any case, regardless of whether they are victorious or defeated. At the end of the work, as said by Ildırım Bayazid, "There is nothing to think about. Yes, you win. However, this victory did not satisfy the Turkish government, but only the neighboring governments, which were waiting for an opportunity. Rather, he left the Islamic world without a head."

Topal Teymur drama is among the immortal works of Azerbaijani literature. It was staged in the theater a few times, and later it was made as a TV show.

***Key words:*** *Topal Teymur, Romanticism, History, dramaturgy, Huseyn Javid*

Məsul katib fil.ü.f.d.,dos. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.